**«Dövlət qeydiyyatına alınmışdır»** **«Təsdiq edilmişdir»**
**Ümumi Yığıncağın 10.02.2022-ci il tarixli qərarı ilə**

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyində** **Təsisçilər:**

**Qeydiyyat № ________________**

**«____» ____________ 2022-ci il**

**Qeydiyyat və notariat baş**

**idarəsinin rəisi**
**xx xxxxxxxxx ______________**

# "Azərbaycan Rektorlar Konfransı" ictimai birliyinin

## NİZAMNAMƏSİNİN Layihəsi

**Bakı - 2022**

## 1. Ümumi müddəalar

1.1. “Azərbaycan Rektorlar xxxx ” ictimai birliyi (bundan sonra – Birlik) Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən Mülkiyyətindən, tabeliyindən və təşkilati hüquqi formasından asılı olmadan ali təhsil müəssisələrinin (bundan sonra - ATM) rəhbərlərini ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərinin hüquq bərabərliyi prinsipləri əsasında yaradılan, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvlərinin arasında bölməyən qeyri-hökumət təşkilatıdır və fəaliyyəti Azərbaycan Respublikasının ərazisini əhatə edir.

1.2. Birlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Müvafiq qanunvericiliyi və normativ hüquqi aktları qanunlarını, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin digər müvafiq Fərman və Sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərar və Sərəncamlarını, digər əlaqədar qanunvericilik və normativ hüquqi aktları və bu Nizamnaməni rəhbər tutur.

1.3. Birlik öz fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) ilə, ali təhsil müəssisələri və digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Birliyin müstəqil balansı, əmlakı, üzərində adı yazılmış möhürü, ştampı, blankları və loqosu, xəzinə, bank hesabları (yerli və xarici valyutada) və digər rekvizitləri vardır.

1.5. Birlik Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alındığı tarixdən hüquqi şəxs statusunu əldə edir.

1.6. Birliyin yerləşdiyi ünvan: Bakı şəhəri,......1

## 2. Birliyin fəaliyyətinin məqsədi və vəzifələri

2.1 Birliyin məqsədi Azərbaycan Respublikasında ali təhsil sahəsində ortaq dəyərləri qorumaqla ali təhsil müəssisələrinin yerli və

beynəlxalq aləmdə sağlam rəqabət qabiliyyənin artırılmasına dəstək göstərməkdir.

2.2 Bu məqsədə nail olmaq üçün Birlik aşağıdakı vəzifələri yerinə yetirir:

2.2.1 Öz üzvlərinin qanuni maraqlarını və hüquqlarını müdafiə etmək və fəaliyyətlərinin səmərəliliyinin artırılması üçün dəstək vermək;

2.2.2 Ali təhsil müəssisələrinin fəaliyyətinə dair normativ hüquqi sənədlərin və qanunvericilik bazasının hazırlanması və təkmilləşdirilməsində birbaşa iştirak etmək və (və ya) bu kimi sənədlərə rəy vermək;

2.2.3 Ali təhsil müəssisələri, dövlət qurumları və əmək bazarı arasında əlaqələrin qurulması və inkişafına dəstək vermək;

2.2.4 Ali təhsil müəssisələrinin fəaliyyətinə dair davamlı analitik məlumatlar hazırlama və dərc etmək;

2.2.5 Ali təhsilin beynəlmiləlləşməsini təşviq etmək;

2.2.6 Xarici ölkələrin rektorlar konfransları, Avropa Universitetləri Assosiyasiyası və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək;

2.2.7 Ali təhsil müəssisəsinin fəaliyyəti (təlim-tədris, elmi, yaradıcılıq və s.) ilə bağlı milli reytinq sisteminin yaradılması haqqındatəkliflər hazırlamaq;

2.2.8 Ali təhsil müəssisələrində tələbəyönlü, inklüziv və dəstəkləyici tədris mühitinin yaradılmasını stimullaşdırmaq;

2.2.9 Müxtəlif konfranslar, seminarlar, dəyirmi masalar, görüşlər, digər elmi və mədəni-kütləvi tədbirlər təşkil etmək;Ali təhsil müəssisələri arasında müəllim-tələbə mübadiləsinin inkişaf etdirilməsini təşviq etmək;

2.2.10 Fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

2.2.11 Fəaliyyət istiqamətlərinə aid xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

2.2.12 Azərbaycanda ali təhsilin və elmin inkişafına sosial dəstəyin gücləndirilməsi ilə bağlı fəaliyyətlərin inkişaf etdirilməsinə dəstək göstərmək;

2.2.13 Ali təhsil müəssisələrinin akkreditasiya qiymətləndirilməsinə dəstək məqsədi ilə müvafiq səlahiyyətli quruma xarici və yerli

mütəxəssisləri (ekspertləri) akkreditasiya qiymətləndirilməsi prosesində iştirak etmələri üçün tövsiyə etmək;

2.2.14 Dövlət büdcəsi vəsaitlərindən ali təhsil müəssisələrinə sərmayələrin ayrılması ilə bağlı təkliflər hazırlamaq;

2.2.15 Birliyin fəaliyyəti haqqında ictimaiyyətin məlumatlandırılmasını və mütəmadi olaraq informasiyanın yenilənməsini təmin etmək;

2.2.16 Birlik qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə, statistik və sair hesabatlar tərtib edir və müvafiq dövlət orqanlarına təqdim edir.

2.3 Nizamnamədə nəzərdə tutulmuş vəzifələri həyata keçirmək üçün Birlik aşağıdakı hüquqlara malikdir:

2.3.1 Öz adından əqdlər bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış etmək;

2.3.2 Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis etmək;

2.3.3 Azərbaycan Respublikasının müvafiq dövlət, bələdiyyə orqanları, müxtəlif təşkilatlara üzv olmaq, beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək;

2.3.4 Qanunvericiliklə qadağan edilməyən və Nizamnamə məqsədlərinə uyğun olan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

2.3.5 Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək;

2.3.6 Ali təhsilin inkişafına xidmət göstərəcək fondları yaratmaq və idarə etmək;

2.3.7 Dövlət və bələdiyyə qurumlarında ali təhsil sahəsinə aid məsələlərin müzakirəsində iştirak etmək, təkliflər vermək;

2.3.8 Azərbaycanın akademik, elmi və digər icmaları təmsil edən kollegial orqanlar, assosiasiyalar və digər birliklərlə əməkdaşlıq etmək;

2.3.9 Beynəlxalq proqram, simpozium, konfranslarda iştirak etmək və ali təhsil məsələləri üzrə Birliyi təmsil etmək;

2.3.10 Müxtəlif konfranslar, seminarlar, dəyirmi masalar, görüşlər, digər elmi və mədəni-kütləvi tədbirlər təşkil etmək;

2.3.11 Xidməti Müqavilə əsasında ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

2.3.12 Fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı ayrı-ayrı sahələr üzrə daimi və müvəqqəti komissiyalar yaratmaq və onların fəaliyyətini təmin etmək;
2.3.13 Ölkədəki elmi-tədqiqat imkanlarının artmasına töhfə vermək məqsədilə birgə ixtisaslaşmış tədqiqat mərkəzləri yaratmaq;
2.3.14 Ali təhsil müəssisələrinə və ya digər dövlət qrumlarına öz fəaliyyət istiqamətində qeyd olunan məsələlərin səmərəli icrası üçün sorğular vermək və onlardan müvafiq məlumatları almaq.

## 3. Birliyin təsisçiləri

3.1. Birliyin təsisçiləri XXX ali təhsil müəssisələridir.
3.2. Təsisçilər bərabər hüquqlara malikdirlər. Təsisçilərin qarşılıqlı münasibətləri, hüquq və vəzifələri qanunvericiliklə, yaxud onların arasında bağlanmış müqavilə ilə və ya bu Nizamnamə ilə müəyyən edilir.

## 4. Birliyin təşkilati strukturu və idarəetmə orqanları:

4.1. Birliyin ali idarəetmə orqanı ildə iki dəfədən az olmayaraq çağırılan Ümumi Yığıncaqdır. Ümumi Yığıncaq Birliyə üzv olan ali təhsil müəssisələrinin rektorlarından ibarətdir.
4.2. Ümumi Yığıncağın iclasları hər tədris ilinin başlamasından 3 (üç) həftə əvvəl olmaqla, ildə 2 (iki) dəfə keçirilir.
4.3. Ümumi Yığıncaq Birliyin icra orqanının, təsisçilərin birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə növbədənkənar çağırıla bilər.
4.4. Birliyin təsisçilərinə və üzvlərinə Yığıncağın yeri və vaxtı haqqında 2 (iki) həftə əvvəl məlumat verilməlidir.
4.5. Ümumi Yığıncağın səlahiyyətləri aşağıdakılardır:
4.5.1. Birliyin Nizamnaməsinin qəbulu və ona dəyişikliklərin edilməsi;
4.5.2. Birliyin əmlakının formalaşması və istifadə prinsiplərinin müəyyən edilməsi;
4.5.3. Birliyin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
4.5.4. Ali təhsil sahəsində müxtəlif məsələlərin müzakirə edilməsi və qəbul olunmuş müvafiq qərarların Azərbaycan Respublikası Təhsil Nazirliyinə tövsiyə kimi təqdim edilməsi;

4.5.5. İllik (o cümlədən maliyyə) hesabatının təsdiq edilməsi;

4.5.6. Birliyin İdarə Heyəti, Katiblik, Komitə sədrləri və Nəzarət-təftiş Komissiyasının rəhbərlərinin hesabatlarının dinlənilməsi və qiymətləndirilməsi.

4.6. Ümumi Yığıncaq yalnız Birlik üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətli hesab olunur.

4.7. Ümumi Yığıncaqda müzakirə olunan məsələlər haqqında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Nizamnaməyə dəyişiklik və əlavələr edilməsi, Birliyin yenidən təşkili və ləğv edilməsi barədə qərarlar üçdə iki səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı hər bir üzv bir səsə malikdir.

4.8. Birliyin fəaliyyətində cari rəhbərliyi icra orqanı həyata keçirir.

4.9. Birliyin İcra orqanı 7 rektordan ibarət kollegial icra orqanı olan İdarə Heyətidir. İdarə Heyətinin tərkibinə ən azı 1(bir) region və 1 (bir) özəl ali təhsil müəssisəsi seçilir. İcra orqanı Birliyin sədrindən, onun 2 müavinindən və digər şəxslərdən ibarət olur.

4.10.İdarə Heyəti aşağıdakı səlahiyyətlərə malikdir:

4.10.1. Birliyin üzvlüyünə qəbul və üzvlükdən azad etmək;

4.10.2. Birliyin strateji planının hazırlanmasına və icrasına birbaşa nəzarət;

4.10.3. Birliyin daimi və müvəqqəti komissiyalarının, komitələrin yaradılması və üzvlərinin seçkisi məsələlərini həyata keçirmək;

4.10.4. Təkliflər və layihələr irəli sürmək;

4.10.5. Birliyin daimi əsaslarla fəaliyyət göstərən Katibliyini yaratmaq, onun əsasnaməsini, illik planını və xərclər smetasını təsdiq etmək;

4.10.6. Birliyin filiallarını yaratmaq və nümayəndəliklərini açmaq;

4.10.7. Birliyin Ümumi Yığıncağının səlahiyyətlərinə aid edilməyən və qanunvericiliklə qadağan edilməyən digər bütün işlərini və məsələlərini həll edir

4.10.8. Birliyin strukturunu, daimi işçilərinin say həddini və əməkhaqlarını (o cümlədən əməkhaqqına əlavələri, mükafatları və digər ödənişləri) təsdiq etmək;

4.10.9. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.11.İdarə Heyətinin iclasları üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli sayılır və qərarlar sadə səs çoxluğu ilə qəbul edilir

4.12.İdarə Heyətinin tərkibi Ümumi Yığıncaqda səs çoxluğu ilə ali təhsil müəssisəsinin rektorları arasından seçilir.

4.13. İdarə Heyətinin sədri və müavini Birliyin Ümumi Yığıncağı tərəfindən x (x) il müddətinə seçilir.

4.14. İdarə heyətinin sədri aşağıdakı vəzifələri yerinə yetirir:

4.14.1. İdarə Heyəti və Ümumi Yığıncağın iclaslarına sədrlik və Yığıncağın işinə rəhbərlik edir;

4.14.2. Birliyin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir və icraedici, qərarverici funksiyaları daşıyır;

4.14.3. Birliyi təmsil edir, onun adından müqavilələr bağlayır, etibarnamələr verir, Ümumi Yığıncağın qərarlarının icrasını təşkil edir;

4.14.4. Birliyin Katibliyinə, daimi və müvəqqəti komitələrinin işinə ümumi rəhbərlik edir;

4.14.5. Ümumi Yığıncaq tərəfindən və qanunla onun üzərinə qoyulan digər funksiyaları həyata keçirir.

4.15. İdarə Heyətinin sədri və sədr müavini müvəqqəti kənarlaşdıqda, onların səlahiyyətlərini İdarə Heyəti üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.16. İdarə Heyəti sədrinin təklifi və İdarə Heyətinin qərarı ilə Birliyin Katibliyinə birbaşa rəhbərliyi baş katib həyata keçirir.

4.17. Katiblik aşağıdakı vəzifələri yerinə yetirir:

4.17.1. Katiblik icra aparatı olmaqla, Birliyin cari və inzibati fəaliyyətlərinin koordinasiyasını həyata keçirən struktur bölməsidir. Katiblik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən bilavasitə Birliyin İdarə Heyətinin sədrinə tabedir və onun qarşısında cavabdehlik daşıyır. Katiblik Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirə bilər:

4.17.2. Birliyin qərar və göstərişlərinin icrası üzərində nəzarəti həyata keçirmək;

4.17.3. Birliyin qərar və göstərişlərinin həyata keçirilməsini təmin etmək üçün bilavasitə, yaxud müvafiq struktur bölmələri cəlb etməklə müvafiq tədbirlər görmək;

4.17.4. Birliyin analitik-informasiya və təşkilati-texniki təminatını həyata keçirmək;

4.17.5. Birlik iclaslarında müzakirə ediləcək məsələlərlə bağlı sənədlərin (gündəliyin) hazırlanmasını və üzvlərə təqdim edilməsini təmin etmək;

4.17.6. Birlik iclaslarının protokollarının hazırlanması, eləcə də rəsmiləşdirilməsini təmin etmək;
4.17.7. Birlikdə keçirilən rəsmi və işgüzar qəbulların, görüşlərin və digər tədbirlərin protokol xidmətinin təşkilini və tənzimlənməsini həyata keçirmək;
4.17.8. Birliyə göndərilmiş müraciətlərə qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada baxılmasını təmin etmək;
4.17.9. Birliyin yazışma işlərini təşkil etmək;
4.17.10. Birliyin yerli və xarici mətbuatla əlaqələrini tənzimləmək;
4.17.11. Birlik qərarlarının yazılmasını, imzalanmasını və saxlanmasını təmin etmək;
4.17.12. Birlik qərarlarının müvafiq ATM-lərə və qurumlara göndərilməsini təmin etmək;
4.17.13. Birliyin Katibliyə həvalə etdiyi digər vəzifələri həyata keçlirmək.

4.18. Nəzarət-təftiş Komissiyası (NTK) Birliyin vəzifəli şəxslərinin və üzvlərinin fəaliyyətinin Nizamnamədən kənara çıxmamasına, Birliyin maliyyə fəaliyyəti üzərində nəzarəti həyata keçirir. NTK-nın üzvlərinin sayı və tərkibi Ümumi Yığıncaq tərəfindən müəyyən edilir. NTK üzvlərinin səlahiyyət müddət x ildir.

4.19. NTK Birliyin daxili fəaliyyəti ilə bağlı onun idarəetmə orqanları və üzvlərindən daxil olan ərizələrə 1(bir) ay ərzində baxıb cavab verməlidir.

## 5. Birliyin əmlakı və maliyyə fəaliyyətinin əsasları:

2.4 Birliyin mülkiyyətində binalar, qurğular, mənzillər, avadanlıqlar, inventarlar, pul vəsaitləri, səhmlər, digər qiymətli kağızlar və bu Nizamnamə ilə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.

2.5 Birlik öz öhdəliklərinə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.

2.6 Birliyin əmlakının formalaşdırılması mənbələri aşağıdakılardır:

2.6.1 Təsisçilərin və ya birlik üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;
2.6.2 Əmlak haqları və könüllü ianələr;

2.6.3 Malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar;
2.6.4 Səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;
2.6.5 Öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
2.6.6 Qrantlar;
2.6.7 Qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət gəlirləri və sair mədaxillər.

2.7 Birliyin üzvləri onun mülkiyyətinə daxil olan ayrı-ayrı obyektlər üzərində xüsusi hüquqlara malik deyil.

2.8 Birlik Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada fəaliyyətinin məqsədlərinə və əmlakın təyinatına müvafiq olaraq öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.

2.9 Birliyin hesabına daxil olmuş məqsədli vəsaitlər təhsilin inkişafından başqa istiqamətlərdə xərclənə bilməz.

2.10 Birlik siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz.

2.11 Birlik qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə, statistik və sair hesabatlar tərtib edir və müvafiq dövlət orqanlarına təqdim edir.

2.12 Birlik öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edə bilər.

## 6. Üzvlük siyasəti və prinsipləri

6.1. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən institusional olaraq akkreditasiya olunmuş və ya yenidən təşkil olunma ilə yaradılmış Publik hüquqi şəxs statusunda olan və yeni fəaliyyətə başlamış ali təhsil müəssisələri Birliyə üzv ola bilər;

6.2. Üzvlər rəsmi statusları ilə əlaqədar Birliyin bütün fəaliyyətində iştirak edir və onlar razılaşdırılmış üzvlük haqqını tələb olunan miqdarda tam həcmdə və tələb olunan zamanda ödəməyi öz öhdəliyinə götürürlər;

6.3. Ali təhsil müəssisələrinin əsas təmsilçisi rektorlar hesab edilir;

6.4. Birliyə üzv kimi qoşulmaq istəyən ali təhsil müəssisəsinin rəhbəri akkreditasiyaya dair şəhadətnamənin sürəti ilə birlikdə Birliyin sədrinə yazılı ərizə ilə müraciət edir;
6.5. Müraciətə 3 ay müddətində baxılır, səsvermə nəticəsində İdarə Heyətinin üzvlərinin yarıdan çoxu bu məsələyə müsbət münasibətlərini bildirdikdə, ərizəçi Birliyin üzvü seçilir;
6.6. Ali təhsil müəssisəsi bu sənədin 3.1-ci bəndinə uyğun olaraq təqdim etdiyi üzvlük ərizəsinə baxıldığı müddətdə (üç ay) Ümumi Yığıncağın fəaliyyətində müşahidəçi kimi iştirak edə bilər;
6.7. Birliyin üzvlərinə Birliyin ali orqanı tərəfindən təsdiq edilmiş formada üzvlük vəsiqəsi verilir;
6.8. Birliyin üzvləri öz aralarında bərabərhüquqlu olub, aşağıdakı hüquqlara malikdir:
6.8.1. Bu Nizamnamədə və digər sənədlərdə nəzərdə tutulmuş qaydada təşkilatın idarəçiliyində iştirak etmək;
6.8.2. Birliyin hər hansı seçkili, o cümlədən rəhbər orqanına üzv seçmək və seçilmək;
6.8.3. Birliyin fəaliyyətində və təşkil etdiyi tədbirlərdə iştirak etmək;
6.8.4. Birliyin rəhbər orqanlarının fəaliyyəti barədə məlumat almaq, fəaliyyətinə nəzarət etmək;
6.8.5. öz mənafelərinin müdafiəsinə kömək göstərilməsi üçün Birliyə müraciət etmək;
6.8.6. Seçki proseslərində səs vermək;
6.8.7. Onun hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək, Birliyin müvafiq orqanlarına etirazını bildirmək və şikayət etmək.
6.9. Birliyin üzvü birdən artıq seçkili orqana üzvü ola bilməz.
6.10. Birliyin üzvü yalnız Birliyin idarə heyətinin sədri səlahiyyət verdikdə, həmin orqanı təmsil edə və .onun adından bəyanatla çıxış edə bilər.
6.11. Birliyin üzvləri aşağıdakı vəzifələri daşıyırlar:
6.11.1. Birliyin Nizamnaməsinə, həmçinin əxlaq və etika normalarına əməl etmək;
6.11.2. Birliyin seçki orqanlarının qərarlarını yerinə yetirmək;
6.11.3. Nizamnamə tələblərinə riayət etmək;
6.11.4. Birliyin tədbirlərində iştirak etmək;
6.11.5. Ali təhsilin inkişafı istiqamətində Birliyin icra etdiyi bütün faəliyyətlərdə yaxından iştirak etmək.

6.12. Birliyə üzvlük haqqının miqdarı hər üzv üçün öncədən müəyyənləşdirilmiş üzvlük haqqı hesablama qaydalarına əsasən Birliyin İdarə Heyəti tərəfindən müəyyən edilir.

6.13. Birliyin üzvlüyə aşağıdakı hallarda xitam verilir:

6.13.1. Könüllü olaraq Birliyin üzvlüyündən çıxdıqda; belə ki, hər bir tamhüquqlu üzv ən azı 1 ay əvvəldən Birliyi məlumatlandırmaqla üzvlükdən imtina edə bilər.

6.13.2. Birliyin üzvlüyündən çıxarıldıqda.

6.14. Birliyin üzvü aşağıdakı hallarda üzvlükdən xaric edilir:

6.14.1. Ali təhsil müəssisəsi dövlət tərəfindən institutsional akkreditasiyadan keçə bilmədiyi halda (Akkreditasiya Şurasının qərarı və müvafiq səlahiyyətli qurumun əmrinə əsaslanaraq).

6.14.2. Yazılı bildirişə baxmayaraq, təqvim ilinin sonuna qədər üzvlük haqqı ödənilmədiyi halda;

6.14.3. Ümumi Yığıncağın və digər mühüm fəaliyyətlərin iclasında ardıcıl üç dəfə iştirak edilmədiyi halda;

6.14.4. Nizamnamənin qoyulmuş tələblərini pozduğu zaman

6.14.5. Üzvlükdən, təsisçilikdən çıxarılma Birliyin sədrinin və ya İdarə Heyətinin qərarı ilə həyata keçirilə bilər;

6.14.6. Birlik üzvünün üzvlükdən və ya təsisçilikdən çıxarılma qərarı ilə bağlı Birliyin ali idarəetmə orqanına və (və ya) məhkəməyə inzibati qaydada şikayət etmək hüququ vardır;

6.14.7. 5.15.1 və. 5.15.2-ci bəndlərlə əlaqədar, üzvlüyünə xitam verilmiş ali təhsil müəssisəsi Nizamnamənin üzvlüklə bağlı müvafiq tələblərini yerinə yetirdikdən sonra üzvlük haqları tam bərpa olunur.

## 7. Üzvlük haqları

7.1. Birliyin illik xərclər steması üzvlük haqlarından maliyyələşdirilir.

7.2. Üzvlük haqlarının minimum həddi Ümumi Yığıncaq tərəfindən aşağıdakı meyarlara uyğun olaraq müəyyən edilir:

7.2.1. Bakalavr pilləsi və magistratura səviyyəsi üzrə təhsil alan ümumi tələbə sayına; Bakalavr pilləsi və magistratura səviyyəsi üzrə Dövlət hesabına təhsil alan tələbə sayına;

7.2.2. Bakalavr pilləsi və magistratura səviyyəsi üzrə bir tələbə üçün alınan təhsil haqqının miqdarına uyğun olaraq müəyyən edilir.

## 8. Birliyin fəaliyyətinə xitam verilməsi:

8.1. Birliyin fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ləğv edilməsi yolları ilə xitam verilir. Birliyin fəaliyyətinə xitam verilməsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

8.2. Birliyin könüllü olaraq ləğvi yalnız Ümumi Yığıncaq üzvlərin üçdə iki hissəsinin səs çoxluğu ilə qəbul edilən qərarı əsasında həyata keçirilə bilər.

8.3. Könüllü şəkildə ləğv edildikdə, Birliyin vəsaitləri barədə aktivlər varsa, ona dair qərar qəbul edir. O, ləğvedici təyin edir və öhdəlikləri bitdikdən sonra qalan vəsaitlərin haraya köçürüləcəyinə qərar verir. Əgər mümkündürsə və qanuni cəhətdən əsaslandırılıbsa, bu vəsaitlər Birlik ilə eyni məqsədə xidmət edən təşkilata köçürülməlidir; əks halda onlar sosial müavinətlər üçün istifadə edilməlidir.